*Əsl sənətkar həyatı məzuniyyət vasitəsilə deyil, həmişə, bütün ömrü boyu öyrənir, tədqiq edir, həyat haqqında mühakimələr yürüdür, hadisə və insanları mənalandırmaq üçün yollar axtarır, öz müşahidələrini saf-çürük edir, ümumiləşdirir, zahirən bir-birilə o qədər də əlaqəsi olmayan hadisələrin inkişafındakı qanunauyğunluğu və əlaqəni dərk edir, ziddiyyətlərin mahiyyətini mütəfəkkir bir yaradıcı kimi açır və işıqlandırır.*

**Məmməd Səid Ordubadi**

# Həyat və yaradıcılığı

Görkəmli yazıçı-dramaturq, Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi, mahir jurnalist və publisist, gözəl şair və tərcüməçi Məmməd Səid Ordubadi şair Fəqir Ordubadinin oğludur. Fəqirin ailəsi həmişə çətinliklə dolanmışdır. Sonralar gözləri tutulmuş şairin ömrünün son günləri xüsusilə ağır ehtiyac içərisində keçmişdir. Atasının ölümündən sonra 7 yaşlı Məmmədi və bacısını bir müddət əmiləri saxlamış, lakin onun da imkanı olmadığından az sonra Ordubadi iş axtarmalı olmuşdur. O özünün ilk əmək fəaliyyəti haqqında belə yazır:

"Mən Karapet Babayevin fabrikinə girdiyim vaxt on dörd yaşım var idi. Bir il ipək mövsümünü ayda manat yarım maaşla işlədim. Mən bu mövsümün altı ayını çalışıb, altı ayını oxudum".

Ordubadi ilk təhsilini molla yanında, sonra isə Mirzə Baxşı adlı bir müəllimin məktəbində almışdır. Şeir və ədəbiyyat maraqlısı olan Mirzə Baxşı Ordubadinin istedadını və oxumağa böyük həvəsi olduğunu görərək ona daha artıq diqqət verir, hətta ondan təhsil haqqı da almır. Lakin əsl təhsilini Ordubadi dövrünün qabaqcıl maarifpərvərlərindən olan şair Məmməd Tağı Sidqinin açmış olduğu yeni tipli məktəbdə - Üsuli-cədid məktəbində alır. Öz dövrunə görə geniş məlumat və dərin bilik sahibi olan Sidqi Ordubadinin müasir dünyəvi elmlərin əsaslarına yiyələnməsində, beynəlxalq ədəbi hadisələr, elm və mədəniyyət yenilikləri ilə tanış olmasında, onun demokratizm və maarifçilik ruhunda tərbiyə almasında mühüm rol oynamışdır.

Məktəbdənkənar vaxtlarını Ordubadi mədrəsəyə gedərək ərəb və fars dillərini, sərf-nəhv və məntiqi öyrənməyə sərf edirdi.

Dördsinifli şəhər məktəbini bitirdikdən sonra daha oxumağa imkanı olmayan Ordubadi biliyini şəxsi mütaliə yolu ilə artırmaqda davam etmiş, eyni zamanda fabrik və zavodlarda çalışaraq ailəsini dolandırmışdır. Əvvəllər siyasi şüuru aydın olmadığından o istismarı və onun səbəblərini hələ dərk etmirsə də, getdikcə

istismarçı quruluşun bütün ağırlıqlarını öz üzərində hiss edərək etiraz səsini qaldırmağa başlayır. Bu barədə xatirələrində yazır:

"…Sağlam bədənim var idi, yorğunluq nə olduğunu bilmirdim. Hər kəsdən əvvəl işə gəlib, hər kəsdən də sonra gedirdim. Zavod sahibi Karapet Babayev də "sağ ol" deyə hey fəaliyyətimi tərifləyirdi. Mən də bundan xoşlanırdım, çünki istismarın və istismarçının nə olduğunu bilmirdim… Mən 1901-ci ildən Rzayevin zavodunda çalışırdım… Rzayev çox böyük istismarçı idi. İşi illik olduğundan bütün əziyyətlərə dözməyə məcbur olurduq… Bu barədə mən bir şeir də yazmışdım:

Qorxuruq küləkdən, qorxuruq yeldən,

Ruzumuz asılmış incə bir teldən.

İşə çağırırlar ulduz batmamış,

İşdən buraxmazlar şəhər yatmamış.

Sahibkarların zülm və haqsızlıqlarını fəhlələrə başa salıb etiraz çıxışları təşkil etdiyindən Ordubadi tez-tez işdən qovulur və yeni iş yeri axtarmağa məcbur olurdu. Bu vəziyyət 1907-ci ildə Culfaya köçdüyü zamana qədər davam edir. Culfaya köçməsinə isə onun ədəbi fəaliyyəti səbəb olur.

**Poeziya**

Ordubadi ədəbi yaradıcılığa 14–15 yaşlarından başlamışdır. Müəllimləri Mirzə Baxşı və Sidqi onda şeirə, yaradıcılığa olan meyil və həvəsi daha da gücləndirmişdi. Bu barədə o öz xatirələrində deyir:

"Mən şeir demək və yazıçı olmağa heç də həvəslənmirdim. Atamın yazdığı şeirlərin palçıq içərisinə atılması heç də yadımdan çıxmırdı. Bir çox zamanlar anam da buna mane olurdu. Çünki atamın şeir sənətindən nə kimi fəlakətlər çəkdiyi onun gözünün qabağında idi. Lakin məktəb və şeirləşmə işi özüm də hiss etmədiyim bir surətdə məni şeir yazmağa öyrətdi".

Aşiqanə parçalardan ibarət olan ilk şeirlərini Ordubadi Azərbaycan və fars dillərində yazmışdır. Bu ilk şeirlərə nümunə kimi aşağıdakı parçanı göstərmək olar:

Əzizim, hicri-qəmin aşiqə müsibət olur,
O sərv qamətini görməsəm qiyamət olur.
Səfay-i-gülşənə çıxma, xəzanə görsənmə,
O gül camalı qızıl gül görüb xəcalət olur.

1903-çü ildə "Şərqi-Rus" qəzetində Ordubadinin qəzetin nəşrə başlanmasını alqışlayan şeri çap olunur. Bu, şairin mətbuatda çıxan ilk əsəri idi. Şerinin dərc olunması onu ardıcıl olaraq dövri mətbuatda çıxış etməyə həvəsləndirir. Xüsusilə

1905-ci il inqalabından sonra mətbuat səhifələrində onun imzasına tez-tez rast gəlmək olur. İnqilabdan ruhlanan şairin yaradıcılığında yeni dövr başlayır. O, azadlığa, mütləqiyyət üsuli-idarəsi ilə mübarizəyə çağıran əsərlər yazır. Cəhalət və nadanlıq əleyhinə yazdığı "Ədəbiyyat" adlı ilk mətbu şeri Tbilisidə çıxan "Şərqi-Rus" qəzetinin 13 iyul 1903-cü il tarixli 31-ci sayında dərc olunmuşdur.

**“Molla Nəsrəddin”**

1905-ci il inqilabından sonra Ordubadinin həyatında ədəbi yaradıcılığı mühüm rol oynamağa başlayır. "Əsərlərim artdıqca, xüsusən "Molla Nəsrəddin" məcmuəsindəki iştirakım sıxlaşdıqca düşmənlərim də artırdı" - deyə Ordubadi Culfaya köçməsinin səbəbini belə izah edir. Vəziyyət doğrudan da, belə idi. Dini, mövhumatı, ayrı-ayrı molla, seyid və başqa cəhalətpərəstləri tənqid etdiyindən qatı mövhumat yuvası olan o zamankı Ordubadda yaşamaq şair üçün çox çətinləşmişdi. Buna görə də o, Culfaya köçməyə məcbur olmuşdu.

1906-cı il aprelin 7-də "Qeyrət" mətbəəsində işıq üzü görən "Molla Nəsrəddin" jurnalı dövrün bir çox sənətkarları kimi Məmməd Səid Ordubadinin də yaradıcılığında böyük dönüş yaratmışdır. Ordubadinin "Politika aləmindən" adlı felyetonu jurnalın 2 iyun 1906-cı il tarixli 9-cu sayında çap edilmiş, beləliklə, o, jurnalın əsas əməkdaşlarından biri olmuşdur. O, Bakıda çıxan "İrşad", "Səda", "Sədayi-həqq", "Tərəqqi", "Tazə həyat" və s. qəzetlərdə, "Tuti", "Babayi-Əmir" jurnallarında da yaxından iştirak edirdi.

1906-cı ildə şairin "Qəflət", 1907-ci ildə isə "Vətən və hürriyyət" adlı şeir kitabçaları çapdan çıxır. Hər iki kitabda müəllifin maarifçi fikirləri öz əksini tapmışdır.



Ordubadinin istər ədəbi yaradıcılığında, istərsə də muhərrirlik fəaliyyətində "Molla Nəsrəddin" jurnalının böyük rolu olmuşdur. 25 il öz yazıları ilə jurnalda əməkdaşlıq etmiş yazıçının ilk yaradıçılığının realizm və demokratizm istiqamətində inkişaf etməsində, dünyagörüşündəki bəzi ziddiyyətlərdən azad olmasında jurnalın köməyi çox böyük idi.

M.S.Ordubadinin bu jurnal ilə sıx bağlılığının səbəblərindən də biri C.Məmmədquluzadə ilə şəxsi tanışlığı olmuşdur.



Ədibin "Molla Nəsrəddin" jurnalında iştirakının digər səbəblərindən biri isə Ömər Faiq Nemanzadə ilə sıx yaradıcılıq əlaqəsi idi. Hətta Ö.F.Nemanzadə onun "Qəflət" kitabına "Bir-iki söz" adlı müqəddimə yazmışdır. Bu jurnal ədibin həyatında bir cığır açmışdır. Özü üçün xüsusi üslub, janr müəyyənləşdirən ədib yaradıcılığında satirik üslubu sabitləşdirmiş, bu üslub ilə müxtəlif mövzuları canlandırmışdır. Mollanəsrəddinçilər cəbhəsinə qoşulan ədib dil məsələsinə də ciddi fikir verməyə başlamışdır.




M.S.Ordubadinin "Sabir və Molla Nəsrəddin" adlı səhnə əsərindən də aydın olur ki, Ordubadi Sabiri və Mirzə Cəlili özünün ən yaxın silahdaşı hesab etmişdir.

Məmməd Səid Ordubadinin yaradıcılığında bədii publisistikanın felyeton janrında yazdığı əsərlər mühüm yer tutur. Ədibin “Molla Nəsrəddin” jurnalında dərc olunan felyetonlarında bir sıra mühüm ictimai problemlərə toxunulmuş, fanatizm, gerilik və nadanlıq, zülm və ədalətsizlik, imperiya siyasəti tənqid olunmuşdur.

Onun felyetonları “Molla Nəsrəddin”də Hərdəmxəyal, Səid, Məhəmməd Səid, Məsa, Səid Hacıağazadə və başqa imzalarla dərc olunurdu.

**İran inqilabı**

1907-ci ildən Culfaya köçən Ordubadi bu illərdə ədəbi fəaliyyətini davam etdirməklə yanaşı, Cənubi Azərbaycanda Səttarxanın rəhbərliyi altında başlayan azadlıq hərəkatı ilə də yaxından maraqlanırdı. Culfa mühiti Ordubadinnn həyatına bir sıra yeniliklər gətirir. O, İran inqilabına kömək edən təşkilatın üzvləri ilə tanış olur və inqilabda iştirak edir, sosial-demokrat təşkilatı "Hümmət"in Culfa təşkilatına daxil olur. İran inqilabında iştirakı ədibə bir çox əsərlər yazmaq üçün mövzu verir. O, həmin illərdə "Molla Nəsrəddin" jurnalında, Bakıda nəşr olunan qəzetlərdə İran həyatına dair çoxlu felyeton, şer və digər yazılarla çıxış etmişdir. Ədib həmin illərdə "İki cocuğun Avropaya səyahəti" (1908), "Bədbəxt milyonçu, yaxud Rzaquluxan firəngiməab" (1914) romanlarını çap etdirmişdir. Həmin əsərlərdə maarifçilik ideyaları təbliğ olunur.

**“Qanlı sənələr”**

XX əsr Azərbaycan nəsrinin yaradıcılarından biri, böyük yazıçımız Məmməd Səid Ordubadi qələminin məhsulu olan, uzun illərin siyasi təbəddülatlarından keçmiş “Qanlı sənələr” əsəri tarixi həqiqətlərin üzə çıxarılmasına kömək edən dəyərli bir nümunədir. Yazıçının 1908-ci ildə yazıb başa çatdırdığı kitab ilk dəfə

onun "Tazə həyat" qəzeti vasitəsilə millətin sərvət sahiblərinə müraciətindən sonra Bakı milyonçu-xeyriyyəçisi Murtuza Muxtarovun maddi yardımı ilə Haşım bəy Vəzirovun "Səda" mətbəəsində 1911-ci ildə nəşr olunmuşdur. "Qanlı sənələr" kitabında müəllif real faktlar və sənədlər əsasında 1905–1906-cı illərdə çar hökumətinin himayəsi və erməni daşnaksütyun partiyasının fitvası ilə törədilən milli qırğın faciəsini qələmə almışdır. XX əsrin əvvəllərində baş vermiş erməni-müsəlman davasının müxtəlif bölgələrdən gələn müxbir məktubları əsasında təsviri münaqişənin məzmunu və gedişi haqqında oxucuda tam təsəvvür yaradır. Həmin hadisələrin eyni ssenari üzrə yetmiş ildən sonra təkrarən baş verməsi sadəlövhcəsinə keçmişi unutduğumuzu göstərir. Bu səbəbdən də əsərin yenidən nəşri xalqımızın yaddaşını oyatmağa, baş verənlərdən ibrət dərsi almasına xidmət edir.

“Qanlı sənələr” həm də Məmməd Səid Ordubadi yaradıcılığının bütün dövrlər üçün müasir olmasının göstəricisidir.

Ədibin Bakıda "Baği-şah, yaxud Tehran faciəsi" (1910), "Bədbəxt milyonçu" və "Əndəlisin son günləri, yaxud Qrenadanın təslimi" (1914) əsərləri çapdan çıxır, daha sonra "Babayi-Əmir", "Tuti", "Qardaş köməyi" və s. jurnal və qəzetlərin səhifəlrrində şeir və felyetonları dərc olunur.

**Sürgün**

Ədəbi və inqilabi fəaliyyəti genişləndikcə hökumət dairələrinin Ordubadiyə qarşı şübhələri də artırdı. 1915-ci ilin yanvarında Culfada həbs olunaraq, Saritsına (indiki Volqoqrad) sürgün edilən ədib burada kommunistlərlə yaxınlaşmış, 1918-ci ildə Kommunist partiyası sıralarına girmişdir. O, 1920-ci il mayın əvvəlində Bakıya gələrək, "Əxbar" qəzeti redaktorunun müavini, bir qədər sonra isə redaktoru olmuşdur. 1925–1928-ci illərdə "Yeni yol" qəzetinin redaktoru, bir müddət "Molla Nəsrəddin" jurnalının müdiri vəzifələrində işləmişdir. 1920-ci ildən daha məhsuldar işləyən ədib şer, felyeton, publisistik məqalələr yazmış, tərcüməçiliklə məşğul olmuş, şer kitabları çap etdirmiş, "Koroğlu", "Nərgiz", "Nizami" operalarının, "Beş manatlıq gəlin", "Ürək çalanlar" musiqili komediyalarının librettosunu, "Dumanlı Təbriz" pyesini yazmış, həmçinin Nizami Gəncəvi, Füzuli, Molla Pənah Vaqif, Mirzə Ələkbər Sabir və başqaları haqqında məqalələr dərc etdirmişdir.Sürgün illəri ədib üçün olduqca ağır keçmişdir. Qışın ən şiddətli soyuqlarında yatabla uzaq yol getməsi, həbsxanadan-həbsxanaya aparılması, aclıq, dözülməz sürgün həyatı onun səhhətini pozmuşdu. Buna baxmayaraq, imkan tapan kimi Ordubadi vətəndəki dostları ilə əlaqə yaradaraq yazdığı yeni əsərlərini çap etdirməyə müvəffəq olurdu.

**Bolşevik mətbuatı**

Sürgündən Ordubadi 1917-ci il fevral inqilabı nəticəsində azad olur. Tezliklə bolşevik təşkilatları ilə əlaqəyə girərək o, inqilabi fəaliyyətini davam etdirir. 1918-ci ildə Kommunist partiyası sıralarına daxil olan yazıçı Həştərxanda çalışan

Azərbaycan bolşeviklərinin dəvəti ilə Həştərxana gələrək orada "Hümmət" qəzetində əməkdaşlıq edir. "Hümmət" səhifələrində Ordubadinin şeir və məqalələri, "Bolşevizm və aləmi-islam" adlı iri publisistik əsəri dərc olunur. 1920-ci ildə Ordubadi XI ordunun sırasında Dağıstana gəlir, orada mətbəələrin milliləşdirilməsində, poliqrafiya bazasının yaradılmasında fəal iştirak edir, "Qırmızı Dağıstan" qəzetini nəşr etdirir, sonra isə Azərbaycana gəlir.

1920-ci ilin mayında Bakıya gələn ədib böyük bir sevinc və "enerji ilə ədəbi-ictimai işə qoşularaq maarif və mədəniyyətin müxtəlif sahələrində çalışır. Xüsusən mətbuat sahəsində onun böyuk fəaliyyət göstərdiyini qeyd etmək lazımdır. "Əxbar", "Kommunist", "Maarif işçisi", "Yeni yol", "Molla Nəsrəddin", "Şərq qadını" kimi qəzet və jurnalların nəşrində Ordubadinin əməyi çox idi. O zamanlar yenicə təşkil olunmuş "Tənqid-Təbliğ" teatrında da Ordubadi fəal çalışırdı. O, teatr üçün günün mühüm məsələlərinə dair kupletlər, kiçik təbliği pyeslər yazırdı.

Ümumiyyətlə 20-ci illər Ordubadi fəaliyyətinin ən qaynar, dolğun illəridir. Bu illərdə o, dini, mövhumatı tənqid edən onlarla əsər - şeir, felyeton, məqalə və kitab yazır. "Məhərrəmlik və rövzəxanlıq" (1924), "Qurban bayramı bidəti" (1925), "Kərbəla hadisələrinin mənşəi" (1925), "Məhərrəmlik və mədəvi inqilab" (1929) kimi ateistik mövzuda yazdığı bir sıra əsərləri mövhumatla mübarizədə mühüm rol oynayır.

20-ci illərdə Ordubadinin lirik və satirik şeirlərdən, tərcümə və poemalardan ibarət bir neçə şeir kitabı da nəşr edilmişdir, "Şeirlər", "Leninə", "Analıq", "Köhnə adamlar" "Mənim şeirlərim" və başqa kitablarının nəşri Ordubadinin şeir və bədii tərcümə sahəsində də ardıcıl çalışdığını göstərir.

Bu dövrdə ədəbiyyatın demək olar ki, bütün janrlarında yazıb yaradan sənətkar, mövzusu müasir həyatdan alınmış bir neçə dram əsəri də qələmə alır. Onun müvəffəqiyyətlə tamaşaya qoyulan "Sabotajniklər", "Dinçilər", "Oktyabr inqilabı" və başqa pyesləri bu dövrün məhsuludur.

## Yaradıcılığının məhsuldar dövrü

Böyük Vətən müharibəsi illərində qocalığına və səhhətinin pozulmasına baxmayaraq vətənpərvər yazıçı, öz qələm yoldaşları ilə birlikdə yorulmadan çalışır, radio və mətbuatda faşizm əleyhinə əsərləri ilə çıxış edir, sovet adamlarının rəşadət, vətənpərvərlik kimi yüksək keyfiyyətlərini alqışlayan yeni-yeni əsərlər yazır. "Gənc çekistlər", "Kiçik şəhər", "Serjant İvanov adına körpələr evi" kimi roman və hekayələr, "Maral", "İntizar çəkənlər" pyesləri həmin dövrdə yazılmışdır. "XII əsr Azərbaycan ədəbiyyatı və onun klassik Şərq ədəbiyyatına təsiri" əsəri ciddi tədqiqatın məhsuludur.

Bir yazıçı kimi Ordubadi M.F.Axundov və Z.Marağalıdan sonra ədəbiyyatımızda Cənub mövzusunun ən parlaq nümunələrini yaratmışdır və "Bədbəxt milyonçu" romanının mövzusu da İran həyatından götürülmüşdür. Əsərin süjet xətti çox da mürəkkəb deyil. Fransada təhsil alıb Təbrizə qayıdan Rzaqulu xan böyük arzularla yaşayır. O, Təbrizdən Tehrana dəmir yolu çəkdirmək, mütərəqqi ruhlu qəzet nəşr etdirmək, məktəblər və müalicəxanalar açmaq, xalqın rifah halını yaxşılaşdırmaq istəyir. Onun övladları da atası kimi maarifçidirlər, onlar da Avropa təhsili görmüşlər. Lakin nə Rzaqulu xanı, nə də onun maarifçi övladlarını bir kimsə başa düşmür və bundan sonra bu xoşbəxt ailə nadanlığın, xurafatın qurbanı olur. Fasiənin əsas səbəbkarlarından biri də Rzaqulu xanın arvadı Böyükxanım olur. O, zorla təhsilli qızı Münəvvəri gözünü nadanlıq pərdəsi örtmüş, varlı-dövlətli, həm də xeyli yaşlı Qulam xana ərə verdirmək istəyir. Nətisədə Qulam xan Rzaqulu xanın iki oğlunu və onun özünü öldürür.  Beləliklə, "zülmət səltənətində parlayan nurlar" tez də sönüb külə dönürlər.

Əlbəttə, bu, Ordubadinin roman sahəsində ilk addımı idi. Onun təsvir etdiyi qəhrəmanlar işıqlı insanlar idi, lakin qətiyyən mübariz deyildilər. Mütərəqqi arzularını həyata keçirmək yolunda elə ilk təzyiqdən və təcavüzdən sarsıldılar, günlərini ah-ufla keçirdilər. Amansız İran despotizmi onların həyatına son qoydu.

M.S.Ordubadi milli ədəbiyyatımızda tarixi roman janrının banisi sayılır. Onu tarixi roman yazmağa səfərbər edən bir neçə amili açıqlaya bilərik. 1. Ordubadi Azərbaycan və həmçinin Şərq tarixini çox gözəl bilirdi. Ərəb və fars dillərini bilməsi Ordubadini tarixi mənbələrə çəkib aparırdı. Lakin tarixi bilmək azdır, hətta qədim mənbələrlə tanışlıq da elə bir önəm kəsb eləmir, əsası o idi ki, Ordubadi bu tarixi bədii şəkildə oxuculara çatdırmaq istəyirdi. 2. Ordubadi 1905-ci ildən 1920-ci ilədək həm İranda, həm də Azərbaycanda baş verən bir çox tarixi hadisələrin canlı şahidi və iştirakçısı olmuşdu və bu hadisələri illər keçəndən sonra bədii əsərlərində əks etdirməyi qərara almışdı. Ümumiyyətlə, onun tarixə marağı güclü idi və bir sıra dramlarını da tarixi mövzuda qələmə almışdı.

M.S. Ordubadi Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi kimi şöhrət tapmışdır. O, 20-ci illərdən əvvəl yazmağa başladığı dörd cildlik "Dumanlı Təbriz" (1933–1948) roman-epopeyası ilə Azərbaycan ədəbiyatında bu janrın əsasını qoymuşdur. Nizami Gəncəvi dövründən bəhs edən "Qılınc və qələm" (1946–1948) romanında ədib dahi şairin obrazını, o dövrün ictimai-siyasi mənzərəsini yaratmışdır. Onun "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940) tarixi romanları da var.

Adlarını çəkdiyimiz bu romanlar uzun illər Azərbaycan oxucularının sevdiyi, dönə-dönə mütaliə etdiyi əsərlər olmuşdur. Və həmin əsərlər haqqında ədibin sağlığında da, ölümündən sonra da xeyli məqalələr qələmə alınmışdır. Təbii ki, sovet dövrü ədəbiyyatşünaslığında  "Gizli Bakı" və "Döyüşən şəhər" romanları daha yüksək qiymətləndirilmişdir. Çünki bu əsərlərdə bolşevik partiyasının 1897-1919-

cu illərdə Bakıdakı fəaliyyəti əks olunmuşdur. Sadəcə olaraq bolşevik ideologiyasının təsiri ilə yazılan "Gizli Bakı" və "Döyüşən şəhər"də o dövrün həqiqi mənzərəsi bir növ, gizli qalmışdır. Tarixi roman tədqiqatçısı, professor Yavuz Axundlu çox doğru olaraq qeyd edir: "Romanda ("Döyüşən şəhər"də) Bakı komissarlarının fəaliyyəti geniş təsvir olunmamışdır. Bunun bir səbəbi, bəlkə də, müəllifin özünün yaradıcılıq sirridir. Çox güman ki, Bakı komissarlarının əsl simasına yaxından bələd olan ədib o zaman onlar haqqında susmağı daha münasib bilmişdir".

"Dumanlı Təbriz" (1933–1948) roman-epopeyasına gəldikdə isə deyə bilərik ki, bu əsərdə İranda, Cənubi Azərbaycanda baş verən hadisələr obyektivliklə, tarixi həqiqətlərə heç bir müdaxilə etmədən, yamaq vurulmadan canlandırılmışdır. Doğrudur, dörd hissəlik bu romanda personajların sayı həddindən artıqdır, amma müəllif onların heç birinin taleyinə biganə qalmamışdır, hətta epizodik səciyyə daşıyan obrazların da taleyi məlumdur.

Mövzu Ordubadiyə çox tanış idi. O, İranı, Cənubi Azərbaycanı qarış-qarış gəzmişdi, İran inqilabçıları ilə yaxından tanışlığı vardı. Səttarxanı, Bağırxanı görmüşdü, onların hansı amallar uğrunda mübarizə apardığını yaxşı bilirdi. O zaman (1905-1910) İran, Cənubi Azərbaycan bütün Avropa və Asiyanı lərzəyə gətirmişdi, hətta V.İ.Lenin də Səttarxan hərəkatına münasibətini gizlətməmiş, onu Puqaçovla müqayisə etmişdi.

Romanda çox məsələlərdən danışılır: Amerika, Almaniya, İngiltərə, Fransa, Rusiya dövlətlərinin İranda apardığı açıq və gizli siyasət, İran monarxiyasının zəifliyi və çürüklüyü, dini mövhumatın baş alıb getməsi, əhalinin ağır vəziyyəti, inqilabi mübarizənin təsviri... bütün bunlar tarixi dəqiqliklə əks etdirilmişdir. Romanın qəhrəmanı Əbülhəsən bəy (sonradan məlum olur ki, o, Bakıdan göndərilən bolşevikdir) bütün bu hadisələrin içindədir və müəllif ideyasının daşıyıcısıdır.

İranda baş verən birinci inqilab məğlub oldu. Müəllif inqilabın xarakterindən, mahiyyətindən çıxış edib bu məğlubiyyətin səbəblərini də açıqlayır.

Nəhayət, "Qılınc və qələm" romanı haqqında. Bu roman Azərbaycanın dahi şairi Nizamiyə ədəbiyyatda qoyulan ilk böyük abidədir. "Gizli Bakı", "Döyüşən şəhər" və "Dumanlı Təbriz" romanlarında təsvir edilən hadisələrin əksəriyyəti Ordubadiyə tanış idi, bu hadisələrin çoxu onun gözləri qarşısında cərəyan etmişdi. Amma birdən-birə XII əsrə qayıtmaq, mürəkkəb, təzadlı hadisələrlə dolu Nizami dövrünə müraciət etmək böyük məsuliyyət və hazırlıq tələb edirdi. Amma Ordubadi "Qılınc və qələm"i yazarkən həm tarixi mənbələrlə tanış olmuş, arxivlərə baş vurmuş, həm də bir ədəbiyyatşünas kimi Nizaminin həyatı və yaradıcılığı ilə bağlı məqalələr yazmışdır ("Nizaminin dövrü və həyatı", "Nizami dövründə ədəbiyyat", "Böyük şairin yaşadığı mühit"). Təbii ki, bütün bunlar Ordubadini Nizami dövrünə aparıb çıxarmış, onu dahi şairin möhtəşəm obrazını yaratmağa sövq etmişdir.

"Qılınc və qələm"də Ordubadi Azərbaycan Atabəylər dövlətinin yarım əsrlik hakimiyyət dövrünü, saraylarda baş verən hadisələri, bu dövrdə Nizaminin təkcə bir şair kimi deyil, həm də bir vətənpərvər kimi münasibətini əks etdirmişdir. Nizaminin həyatı ilə bağlı belə bir fikir formalaşıb ki, o, saraylardan, ölkəsində baş verən ictimai-siyasi hadisələrdən uzaq idi, amma Ordubadinin romanında biz Nizamini həmişə baş verən hadisələrin ən qızğın məqamlarında izləyirik. Bu onu göstərir ki, Nizami təkcə əsərlərində deyil, həm də yaşadığı dövrdə müdriklik səlahiyyətini üzərinə götürmüşdü.

Ordubadinin bu romanında üç meyil xüsusilə qabarıq nəzərə çarpır. Birincisi: o, xarakter yaratmaqda usta idi, "Qılınc və qələm"ə diqqət yetirin, Nizami ilə yanaşı, Məhsəti, Fəxrəddin, Qızıl Arslan, Rəna, Qətibə... bu obrazların hər biri xarakter səviyyəsinə yüksəlib. Elə bil, Ordubadi onlarla bir əsrdə yaşamış... İkincisi: Ordubadi həm də bədii təxəyyül ustası idi. Onun romanlarında tarixi məkanı və koloriti unutmamaq şərtilə maraqlı təsir bağışlayan hadisələr və obrazlar diqqəti cəlb edir. Üçüncüsü: Ordubadi təsvir etdiyi tarixi qəhrəmanları müasirləşdirirdi, necə deyərlər, modernizə edirdi. Məsələn, "Qılınc və qələm"də Nizaminin bir sıra fikirləri həmin tarixi dövrlə heç səsləşmir və Mehdi Hüseyn "Qılınc və qələm" haqqında qeydlər" məqaləsində "müasirləşdirmək" xəttini tənqid etmişdi. Əlbəttə, bu, Ordubadinin tarixi keçmişlə bu gün arasında körpü yaratmaq niyyətini ifadə edirdi.

XX əsr Azərbaycan memuar ədəbiyyatının kamil xatirə nümunələrindən biri Məmməd Səid Ordubadinin «Həyatım və mühitim» əsəridir. Bu əsər təkcə ədibin həyatı və yaradıcılığı haqqında deyil, dövr haqqında geniş məlumat verən bir əsər kimi qiymətlidir və M.S.Ordubadinin geniş bilik sahibi olduğunu təsdiq edir. Ədibin «Həyatım və mühitim» memuarı ictimai-tarixi, ədəbi-mədəni olayların qorunub gələcək nəslə ötürülməsində onun tarixi əsərlərindən heç də az önəmli deyildir.

Müharibədən sonrakı illərdə Ordubadidə muasir mövzulara meyl daha çox nəzərə çarpır. Müharibə illərində sovet adamlarının ön və arxa cəbhədə göstərdikləri qəhrəmanlıqlara həsr olunmuş "Təzə adam" romanı və Sumqayıt tikintisindən bəhs edən "Böyuk quruluşda" adlı dramı müharibədən sonra qələmə aldığı əsərlərdəndir.

Görkəmli ədibin altmış ilə yaxın davam edən ədəbi fəaliyyəti dövründə 6000 minə qədər əsər yazması, o cümlədən 4000 felyetonun, 1800 məqalənin müəllifi olması onun yaradıcılıq aləminin miqyasını aydın təsəvvür etməyə imkan verir.

Əsərləri müxtəlif dillərə tərcümə edilmişdir. Azərbaycan SSR Ali Sovetinin (1–3-cü çağırış) deputatı seçilmiş, Lenin ordeni və "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur. Azərbaycanda bir sıra küçəyə, mədəni-maarif müəssisəsinə Ordubadinin adı verilmiş, Ordubadda və Bakıda ev-muzeyi yaradılmış, Naxçıvanda büstü qoyulmuşdur.

M. S. Ordubadi uzun sürən xəstəlikdən sonra 1 may 1950-ci ildə Bakıda vəfat etmişdir.

Müasir Azərbaycan oxucusu və yazıçısı üçün Ordubadi kimdir? İlk növbədə, böyük romançı bu janrın təməlini qoyanlardan biri... tarix və müasirlik problemini böyük sənətkarlıqla əks etdirən, əsərlərində parlaq, dolğun və mükəmməl xarakterlər yaradan sənətkar. Azərbaycan ədəbi dilinin gözəlliklərini, incəliyi, duruluğunu, saflığını əsərlərində əyani şəkildə nümayiş etdirən yazıçı. Ordubadi bu mənada, bir məktəbdir və biz illər keçdikcə, bu məktəbdən öyrənməliyik.